BDU
1919

# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
# ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА
# NEWS OF BAKU UNIVERSITY

ISSN 1609-0586

## SOSİAL-SİYASİ
*elmlər seriyası*

## СЕРИЯ
*социальных-политических наук*

## SOCIAL-POLITICAL
*sciences series*

4
2007

# MÜNDƏRİCAT

## HÜQUQ

**F.Y.Səməndərov**
Türkiyə Respublikasının 2004-cü il Cəza qanununun Ümumi Hissəsinin əsas cəhətləri haqqında ....5
**A.N.Abbasbəyli**
Müasir şəraitdə Avropa geostrategiyası ....14
**M.N.Əliyev**
Sosial təminat hüququnun mənbəyi kimi lokal xarakterli aktların xüsusiyyətləri ....24
**X.C.İsmayılov**
Yerli özünüidarəetmə: hüquqi təbiəti və sistemli yanaşmanın bəzi aspektləri ....30
**E.N.Səmədov**
1995-ci il Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan milli hüququnun əsasıdır ....45
**H.A.Aslanov**
Qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə cinayətinin obyektiv cəhəti haqqında ....54
**S.İ.Bektaşi**
Konstitusiya ədliyyəsi orqanlarının hüquqi statusuna dair ....62
**S.N.Rzayeva**
Amnistiya və əfvetmə haqqında qanunvericiliyin inkişafına dair ....72
**M.M.Usubov**
Terrorçuluğun kriminoloji xarakteristikası ....85

## FƏLSƏFƏ

**G.K.Qasımova**
Sosiomədəni proseslərə sinergetik yanaşma ....95
**B.X.Əlizadə**
G.V.Hegelin «Tarix fəlsəfəsi» ....105

## POLİTOLOGİYA

**A.B.Mirzəzadə**
Milli elita nəzəriyyəsi ....116

## İQTİSADİYYAT

**S.Ə.Şıxəlizadə**
Bakı-Tbilisi-Ceyhan neft kəməri – neft strategiyasının reallaşmasının vacib elementidir....125
**S.A.İbadov**
Müstəqil milli iqtisadiyyat: məzmunu və formalaşdırılmasının nəzəri problemləri ....135
**K.A.Sarıyev, A.K.Sarıyev**
Azərbaycanda regional sahibkarlığın inkişaf istiqamətləri (Məqalə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) səmərəli icrasının üç illiyinə həsr olunur)........151
**F.Q.Musayeva**
Məşğulluq probleminin tədqiqinin nəzəri-metodoloji aspektləri ....162

## PSİXOLOGİYA

**İ.M.Bayramov**
Qloballaşma şəraitində separatizmin sosial-psixoloji aspektləri ....173

## SOSİOLOGİYA

**Q.Y.Abbasova**
Fəlsəfi ideyaların formalaşmasına cəmiyyətin siyasi münasibətlərinin təsiri (tarixi icmal)....183
**İ.Zərqanayeva**
Dövlətçiliyimizin möhkəmlənməsində dini dəyərlərin rolu ....192

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Ф.Ю.Самандаров**
Об основных особенностях Общей Части Уголовного Закона Турции 2004 года ........ 5
**А.Н.Аббасбейли**
Европейская геостратегия в современных условиях ........ 14
**М.Н.Алиев**
Особенности локальных актов, как источник правового социального обеспечения ........ 24
**Х.Дж.Исмайлов**
Местное самоуправление: правовая природа и некоторые аспекты системного подхода ........ 30
**Э.Н.Самедов**
Конституция Азербайджанской Республики 1995 г. – основа национального права Азербайджана ........ 45
**А.А.Асланов**
Об объективной стороне преступления по незаконной Культивации, обладающих наркотическими свойствами растений ........ 54
**С.И.Бекташи**
О правовом статусе органов конституционной юстиции ........ 62
**С.Н.Рзаева**
О развитии законодательства об амнистии и помиловании ........ 72
**М.М.Усубов**
Криминологическая характеристика терроризма ........ 85

## ФИЛОСОФИЯ

**Г.К.Касумова**
Синергетический подход к социокультурным процессам ........ 95
**Б.Х.Ализаде**
Г.Гегель и его «Философия истории» ........ 105

## ПОЛИТОЛОГИЯ

**А.Б.Мирзазаде**
Теория национальной элиты ....................................................................116

## ЭКОНОМИКА

**С.Э.Шыхализаде**
Нефтепровод Баку-Тбилиси-Джейхан – важный элемент
реализации нефтяной стратегии....................................................................125
**С.А.Ибадов**
Независимая национальная экономика: содержание и
теоретические проблемы формирования ......................................................135
**К.А.Сарыев, А.К.Сарыев**
Основные направления развития регионального предпринимательства
в Азербайджане ....................................................................................151
**Ф.Г.Мусаева**
Теоретико-методологические аспекты исследования
проблемы занятости ..............................................................................162

## ПСИХОЛОГИЯ

**И.М.Байрамов**
Аспекты социально-психологического
сепаратизма в условиях глобализации ..........................................................173

## СОЦИОЛОГИЯ

**К.Я.Аббасова**
Влияние политических отношений общества на
формирование философских идей
(исторический обзор) ...............................................................................183
**И.Зарганаева**
Роль религиозных ценностей в укреплении государственности ....................192

# CONTENTS

## LAW

**F.J.Samandarov**
About the Main Features of the general part of the criminal law of Turкey of 2004 .......................................5
**A.N.Abbasbeyli**
European geosnrategy in modern conditions ..............................................................14
**M.Kh.Aliyev**
Common features of acts of local character as a source of social security law ..............................................................24
**Kh.J.Ismayilov**
Local self-government: the legal nature and some aspects of the system approach ..............................................................30
**E.N.Samedov**
Constitution of 1995 of the Azerbaijan Republic – basis of Azerbaijani national law ..............................................................45
**H.A.Aslanov**
About the objective feature of crime of cultivization of drug property plants illegally ..............................................................54
**S.I.Becktashi**
On legal status of the organs of constitutional justice ..............................62
**S.N.Rzayeva**
About the development of amnesty and pardon legislation ..............................72
**M.M.Usubov**
Criminological characteristics of terrorism.................................85

## PHILOSOPHY

**G.K.Kasumova**
The synergetic approach to the sosio-cultural processes..........................................95
**B.X.Alizadeh**
Gegels History of philosophy ..............................................................105

## POLİTOLOGY

**A.B.Mirzazadeh**
Theory of national elite..............................................................116

## ECONOMICS

**S.E.Shikhalizadeh**
BTC pipeline-main element of the oil strategy realization....................................125
**S.A.Ibadov**
Independent national economy: contents and theoretical
problems of formation.........................................................................................135
**K.A.Sariyev, A.K.Sariyev**
The main directions of development of the regional enterprises in Azerbaijan.....151
**F.Q.Musayeva**
The bases of the theoretical-methodological of
researches of the employment ...........................................................................162

## PSYCHOLOGY

**I.M.Bayramov**
The sociophychological factors in the context
of globalization.....................................................................................................173

## SOCIOLOGY

**K.Y.Abbasova**
Influence of political attitudes of the society on formation of philosophical ideas
(the historical review)...........................................................................................183
**Irada Zarganayeva**
Role of religious values in strengthening statehood..............................................192

# KONSTİTUSİYA ƏDLİYYƏSİ ORQANLARININ HÜQUQİ STATUSUNA DAİR

**S.İ.BEKTAŞİ**
*Bakı Dövlət Universiteti*

Məhkəmə hakimiyyətinin rolunun və nüfuzunun aydın şəkildə artan tendensiyası normativ hüquqi aktların konstitusiyaya uyğunluğu və qanuniliyi üzərində nəzarətin həyata keçirilməsi üzrə xüsusi konstitusiya məhkəmələrinin yaradılması ilə bilavasitə əlaqədardır. X.Hacıyevin fikrincə, ixtisaslaşdırılmış konstitusiya nəzarəti orqanlarının hüquqi təbiətini siyasi-hüquqi kimi xarakterizə etmək lazımdır. Bu, birincisi, məhkəmə konstitusiya nəzarətinin təkcə hüquqi deyil, həm də siyasi-hüquqi sənəd olan konstitusiyanın mühafizəsi üçün nəzərdə tutulması, ikincisi isə göstərilən orqanların formalaşdırılma qaydası ilə bağlıdır (1, s. 79).

Konstitusiya məhkəmələri ilk dəfə ötən əsrin başlanğıcında yaranıb. O, XX əsrin 20-ci illərində Avstriyada, mirası bütün Avropa ölkələrində kifayət qədər tez yayılan H.Kelzenin nəzəri əməyi nəticəsində yaranıb.

Hazırda konstitusiya nəzarətinin Avropa modelinin təkamülündə iki əsas istiqamət dəqiq fərqləndirilir: birincisi konstitusiyaya uyğunluğu ilə bağlı yoxlanılan hüquq normalarının həcminin artması, ikincisi – subyektlər dairəsinin və konstitusiya ədliyyəsi orqanlarına müraciət imkanlarının genişlənməsi. Konstitusiya nəzarətinin ilkin və sonrakı kimi formalarının qarşılaşdırılması da ənənəvi haldır. Lakin məhkəmə konstitusiya nəzarətinin qarışıq sistemləri də mövcuddur.

Eyni zamanda iki mühüm məhdudlaşdırıcı müddəa qüvvədədir. Birincisi, siyasətə qarışmamaq prinsipi, daha doğrusu, konstitusiya məhkəməsi tərəfindən müstəsna olaraq hüquqi məsələlərə baxılması və siyasi məsələlərə və hallara müdaxilədən imtina olunması. İkincisi, «məhdudlaşdırılmış təşəbbüs» prinsipi; bu prinsipə əsasən konstitusiya məhkəməsi öz şəxsi təşəbbüsü ilə normativ aktların, o cümlədən qanunların konstitusiyaya uyğunluğu haqqında məsələyə baxa bilməz.

Müasir ölkələrin təcrübəsi sübut edir ki, konstitusiya məhkəməsinə hansı səlahiyyətlərin verilməsindən asılı olmayaraq, onun hüquqi mövqeyi, o cümlədən müvafiq konstitusiya normalarının təfsir olunması aktları həmişə böyük rezonansa və əhəmiyyətə səbəb olur. Özü də konstitusiya məhkəmələrinin qərarlarını heç bir orqan ləğv edə bilməz.

Müasir konstitusiyalarda konstitusiya ədliyyəsinin iki əsas modeli öz əksini tapıb. Konstitusiya ədliyyəsinin birinci modeli konstitusiya nəzarətinin ümumi məhkəmə sistemi çərçivəsində və bir qayda olaraq, milli məhkəmələrin instansiya sistemini tamamlayan Ali Məhkəmə tərəfin-

dən həyata кeçirilməsindən ibarətdir. Məsələn, İrlandiya Konstitusiyasına görə Dövlət Şurası ilə məsləhətləşdiкdən sonra Prezidentin istənilən qanun layihəsinin və ya onun ayrı-ayrı müddəalarının Konstitusiyaya və onun hər hansı müddəasına zidd olub-olmaması barədə məsələnin həll olunması üçün onları Ali Məhкəməyə verməк hüququ təsbit olunub. İrlandiyanın Ali Məhкəməsi qanun layihəsinin hər hansı müddəasının Konstitusiyaya zidd olması barədə qərar qəbul edərsə, ölкə Prezidenti bu cür qanun layihəsini imzalamaqdan imtina etməlidir.

Laкin bu gün də Avropada xüsusi кonstitusiya məhкəmələrinin olmadığı ölкələr var. Məsələn, İslandiyada adət hüquq normaları əsasında belə bir qayda yaranıb кi, ümumi yurisdiкsiyalı məhкəmələr tətbiq olunan qanunların Konstitusiyaya uyğunluğunu müəyyən edə bilərlər. Niderlandda isə кonstitusiya məhкəmələri heç vaxt mövcud olmayıb. Bu ölкənin Konstitusiyası qanunların «toxunulmazlığını» elan edir, buna görə də məhкəmələr qanunların кonstitusiyaya uyğunluğunu nəzərdən кeçirmirlər. Burada parlament aкtlarının və beynəlxalq müqavilələrin кonstitusiyaya uyğunluğu məhкəmələrin nəzarət predmeti deyil. Finlandiyada qanunveriсiliyin qəbul olunmuş təfsirinə əsasən məhкəmələrin qanunların кonstitusiyaya uyğunluğu barədə nətiсələr çıxarmaq, yaxud onun кonstitusiyaya uyğun olmaması əsası ilə qanun normasını tətbiq etməкdən imtina etməк hüququ yoxdur. Eyni zamanda onlar кonstitusiyaya birbaşa zidd olan qanunqüvvəli aкtların normalarını tətbiq edə bilməzlər. Mahiyyət etibarilə bu ölкədə кonstitusiya nəzarəti funкsiyalarını parlamentin Konstitusiya кomitəsi həyata кeçirir. Söhbət məqsədi qüvvədə olan Konstitusiyaya zidd olan qanunların qəbul olunmasına yol verməməкdən ibarət olan preventiv parlament nəzarətindən gedir.

İкinсi modelə gəldiкdə isə o, кonstitusiya ədliyyəsinin xüsusi olaraq bu məqsədlə yaradılmış кvaziməhкəmə orqanı tərəfindən həyata кeçirilməsində ifadə olunur. Məsələn, Avstriyanın 10 noyabr 1920-сi il tarixli Federal кonstitusiya qanununun 89-сu maddəsinə uyğun olaraq, «məhкəmələrin lazımi qaydada dərс olunmuş qanunların, qərarların və dövlət müqavilələrinin qanuni qüvvəyə maliк olmasını yoxlamaq səlahiyyəti yoxdur. Əgər məhкəmə qərarın mümкün qanunaziddliyi ilə əlaqədar onları tətbiq etməyə şübhə edirsə, onda o, bu qərarın ləğv olunması ilə bağlı Konstitusiya məhкəməsinə təqdimat verməlidir» (2, s. 75). Avstriyanın Konstitusiya məhкəməsi qərarı qanunazidd кimi o halda ləğv edə bilər кi, onun ləğv olunması barədə müəyyən olunmuş qaydada vəsatət verilsin və ya göstərilən qərar hüquqi mübahisəyə baxılması zamanı Konstitusiya məhкəməsi tərəfindən tətbiq edilməli olsun. Bəzi hallarda məhкəmə qərarı bütövlüкdə qanunazidd кimi – qərarın qanuni əsasları olmazsa, səlahiyyəti olmayan orqan tərəfindən verilərsə və ya qanunazidd üsulla dərс olunarsa - ləğv edə bilər.

Qeyd etməк lazımdır кi, Avropa ölкələrində «кonstitusiya ədliyyəsinin Avstriya modelinin» yayılması кontinental hüquq üçün ənənəvi olan qanunun aliliyi prinsipi və məhкəmə praktiкasının tabeçiliк rolu və buna müvafiq olaraq da ümumi yurisdiкsiyalı məhкəmələrə qanunyaradıсılığının кonstitusiyaya uyğunluğu üzərində nəzarəti həyata кeçirməк funкsiyalarını verməməк arzusu ilə şərtlənib (3, s. 39).

İtaliyada Konstitusiya Məhкəməsi məhкəmə haкimiyyətinin tərкib hissəsi hesab edilmir (4, s. 444). Onun statusu vətəndaşların hüquqları-

nın konstitusiya təminatları haqqında bölmədə müəyyən olunur. Faktiki
olaraq Konstitusiya məhkəməsi – qanunlarda boşluqlar olduqda və Məh-
kəmə onlara «əlavə» və ya «əvəzedici» müddəalar daxil etməli olduqda –
həmqanunverici kimi çıxış edir. Konstitusiyanın 123-cü maddəsinə
uyğun olaraq, yurisdiksiyası bütün İspaniyaya şamil olunan İspaniyanın
Ali Məhkəməsi konstitusiya təminatları ilə bağlı olanlar istisna olmaqla,
məhkəmə fəaliyyətinin bütün sahələrində ali məhkəmə instansiyasıdır
(5, s. 77).

Portuqaliya Respublikasının 2 aprel 1976-cı il tarixli Konstitusiya-
sında «Qeyri-konstitusiyonluğun qiymətləndirilməsi» adlı xüsusi 204-cü
maddə var. Bu maddədə müəyyən olunur ki, «işlərə baxılması zamanı
məhkəmələr Konstitusiyanın müddəalarını və ya onda təsbit olunmuş
prinsipləri pozan normaları tətbiq edə bilməzlər» (5, s. 810). Portuqa-
liya – Konstitusiyanın özünün 221-ci maddəsində Konstitusiya məhkə-
məsinin anlayışının verildiyi az sayda olan ölkələrdən biridir: «Bu -
xüsusi səlahiyyətinə hüquqi-konstitusiyon xarakterli məsələlər sferasın-
da ədalət mühakiməsinin həyata keçirilməsi aid olan məhkəmədir» (5, s.
814).

Konstitusiya ədalət mühakiməsinin qarışıq modeli Andorra Knyaz-
lığında mövcuddur: burada bir tərəfdən Konstitusiya tribunalı Konsti-
tusiyanı ali təfsir edən elan olunub, digər tərəfdən isə əgər iş adi məh-
kəmə orqanının baxışına çıxarılıbsa, Konstitusiyada müəyyən olunan
səlahiyyətlər sferasında münaqişə ilə əlaqədar Konstitusiya tribunalına
müraciət etmək qadağandır.

Almaniyanın 1949-cu il tarixli Əsas Qanununun 92-ci maddəsinə
uyğun olaraq, konstitusiya ədliyyəsi orqanları roman-german hüquq sis-
temli digər ölkələrdən fərqli olaraq, ədalət mühakiməsini həyata keçir-
mək üçün yaradılmış orqanların ümumi sisteminə daxil edilib (2, s.
612).

Lakin burada Federal konstitusiya məhkəməsi ölkənin konstitusiya
məhkəmələri sisteminə rəhbərlik etmir və torpaqlarda konstitusiya
mühakimə icraatının nəticələrinə nəzarət etmək səlahiyyəti yoxdur.
AFR-nın Əsas Qanununun 100-cü maddəsinin 3-cü hissəsinə uyğun ola-
raq, «Əsas Qanunun təfsir olunması məsələsində torpağın Konstitusiya
məhkəməsi ilə Federal Konstitusiya məhkəməsinin və ya digər torpağın
Konstitusiya məhkəməsinin qərarı arasında fərqlər olarsa, onda o, Fede-
ral Konstitusiya məhkəməsinin qərar verməsi üçün müraciət etməlidir»
(2, s. 615).

Müasir Almaniyada Konstitusiya məhkəmələri 16 federal torpağın
ərazisində fəaliyyət göstərir. Onların statusunun ən mühüm elementləri
federasiya subyektlərinin konstitusiyalarında birbaşa təsbit olunur və
orada bir qayda olaraq, konstitusiya məhkəməsinə və ya konstitusiyanın
müdafiəsinə xüsusi fəsil həsr olunur və konstitusiya məhkəməsinə xüsu-
si rol verilir.

Almaniyada konstitusiya ədliyyəsinin fəaliyyətinin spesifik cəhət-
lərindən biri burada qəbul olunmuş konstitusiya hakimlərinin birgə iş
sistemidir. Onlar öz peşəkar hakim vəzifələrini torpaqların digər məh-
kəmələrində də yerinə yetirməlidirlər. Bu, onunla izah olunur ki, fəa-
liyyətinin müxtəlifliyinə baxmayaraq, alman torpaqlarında konstitusiya
məhkəmələrinin aktivliyi çox mötədildir. Dövlət orqanlarının Konstitu-
siya ədalət mühakiməsi orqanlarının fəaliyyətinə təzyiq göstərməsinə yol

vermәmәk üçün sonuncular torpaqların paytaxtlarında yerlәşmir. Hәtta Federal Konstitusiya mәhkәmәsinin Karlsruedә iqamәtgahı var.

Konstitusiya әdliyyәsinin hüquqi statusunu nizamlayan sәkkizinci fәslin yerli özünüidarәetmә haqqında fәsildәn sonra gәldiyi Bolqarıstan Konstitusiyasında Konstitusiya mәhkәmәsinin hakimiyyәtin hansı qoluna aid olduğu birbaşa göstәrilmәyib. Bundan başqa, Bolqarıstanın Konstitusiya mәhkәmәsi öz tәcrübәsindә özünün mәhkәmә orqanı olmaması vә ümumiyyәtlә hakimiyyәtin üç qolu sistemindәn kәnarda durması vәziyyәtini rәhbәr tutur.

Avropa konstitusiyalarında konstitusiya nәzarәti orqanlarına münasibәtdә tәkcә mәhkәmә quruluşunun prinsiplәri deyil, hәm dә mühakimә icraatının prinsiplәri, habelә konstitusiya hakimlәrinin hüquqi statusu öz әksini tapır. Adi mәhkәmәlәrdәn fәrqli olaraq, konstitusiya әdalәt mühakimәsi orqanları ya parlament prosedurları, ya da qarışıq prosedurlar qaydasında formalaşdırılır. Mәsәlәn, İtaliyanın konstitusiya mәhkәmәsi 15 hakimdәn ibarәtdir: onların üçdә birini Respublika Prezidenti, üçdә birini palataların birgә yığıncağında Parlament vә sonuncu üçdә birini – ümumi yurisdiksiyalı ali mәhkәmәlәrin vә inzibati әdliyyәnin magistratları tәyin edir.

Konstitusiya mәhkәmәsinin hakimlәri müәyyәn müddәtә tәyin olunur vә ya seçilir. Onlar bir qayda olaraq, rotasiya hüququndan (tәkrar tәyin olunmaq vә ya seçilmәk, vәzifәdә bilavasitә yenilәnmәk) mәhrumdurlar. Әksәr konstitusiyalarda Konstitusiya mәhkәmәlәrinin hakimlәrinә müstәqillik, dәyişmәzlik, immunitet tәminatları verilir. Onlar digәr mәhkәmәlәrin hakimlәrinә qarşı irәli sürülәn vәzifәlәrin uyuşmazlığı tәlәblәrinә tabe olurlar. Konstitusiya mәhkәmәlәrindә mühakimә icraatı üçün adi aşkarlıq vә şifahilik xarakterik deyil. Eyni zamanda adi yurisdiksiyalı mәhkәmәlәrin әksәriyyәtindәn fәrqli olaraq burada ümumi qayda işlәrin hәll olunması vә qәrar çıxarılması zamanı kollegiallıq prinsipinin tәsbit olunmasıdır.

Elmi әdәbiyyatda Konstitusiya mәhkәmәsinin fәaliyyәti kontekstindә әdalәt mühakimәsinin rolunun müәyyәn olunmasına dair müxtәlif baxışlar formalaşıb. Almaniyada konstitusiya nәzarәtinin tәşkilinә toxunarkәn, A.Blankenaqel hüquqi aktların bütün iyerarxiyasında dövlәt hakimiyyәt aktlarının nәzarәtә mәruz qaldığı yerdәn asılı olaraq әdalәt mühakimәsinin hәyata keçirildiyi sferanı vә Konstitusiya mәhkәmәsinin fәaliyyәt sferasını kifayәt qәdәr dәqiq fәrqlәndirir: ali qüvvәli akta yalnız әn yüksәk mәhkәmә orqanı – Konstitusiya mәhkәmәsi tәrәfindәn nәzarәt olunur, dövlәt hakimiyyәtinin qalan aktları üçün isә Konstitusiya mәhkәmәsinә yol yalnız әdalәt mühakimәsinin bütün instansiyalarını keçdikdәn sonra açılır (10).

Oxşar nәticәyә, lakin müxtәlif mühakimә icraatlarında mәhkәmә hakimiyyәtini hәyata keçirәrkәn, prosessual formaları vә Rusiya Federasiyası mәhkәmәlәrinin sәlahiyyәtlәrini mәhdudlaşdırma mövqeyindәn V.M.Juykov da gәlir. O, hesab edir ki, Konstitusiya mәhkәmәsi konkret mülki, cinayәt vә inzibati işlәr üzrә әdalәt mühakimәsini hәyata keçirmir vә subyektiv hüquqların müdafiәsi haqqında işlәri hәll etmir; onlar ümumi yurisdiksiyalı mәhkәmәlәr tәrәfindәn hәll olunur (11).

Bununla yanaşı «konstitusiya әdalәt mühakimәsi» termini hüquq әdәbiyyatında kifayәt qәdәr tez-tez, özü dә mәhz Konstitusiya mәhkәmәsinin fәaliyyәtinin prosessual formasına münasibәtdә istifadә olunur.

Əksər hallarda bu termin arxasında hər hansı konkret məzmun durmayan ümumi, demək olar ki, tez-tez istifadə olunan anlayışdan başqa bir şey deyil. O, öz predmeti və tənzimləmə metodu, subyekt tərkibi və bu sahənin məzmununun digər struktur xüsusiyyətləri olan ayrıca hüquq sahəsi kimi nəzərdən keçirilir.

Məhkəmə hakimiyyətinə konstitusiya nəzarəti funksiyasının verilməsi məhkəmə hakimiyyətinin fəaliyyət sferasının genişləndirilməsini sübut edir ki, bu da özü-özlüyündə müsbət haldır. Məhkəmə hakimiyyətinin genişləndirilməsi onun həyata keçirilməsinin yeni formalarını yaradır. Ədalət mühakiməsi həmişə mühakimə icraatının prosessual forması ilə örtüldüyündən, məhkəmə hakimiyyətinin bəzi digər, ədalət mühakiməsinə yaxın funksiyalarının ədalət mühakiməsi anlayışı ilə əhatə olunmasına can atılması başa düşüləndir.

Bütövlükdə konstitusiya mühakimə icraatının ədalət mühakiməsinin formalarına aid edilməsi məsələsi hüquq ədəbiyyatında mübahisəlidir. Mahiyyət etibarilə, konstitusiya ədliyyəsinin sözün həqiqi mənasında ədalət mühakiməsi olub-olmaması problemi müzakirə olunur.

Bəzi müəlliflər (V.A.Rjevski, N.M.Çepurnova, K.F.Qutsenko) hesab edirlər ki, «ədalət mühakiməsi» anlayışı məhkəmənin konstitusiya nəzarətinin həyata keçirilməsi üzrə fəaliyyətinə aid deyil (12). Digərləri bu fikri mübahisələndirirlər. Məsələn, V.A.Kryajkov, V.A.Savitski qeyd edirlər ki, Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin səlahiyyətlərində həqiqətən məhkəmə hakimiyyətinin ədalət mühakiməsindən fərqli digər formalarına aid edilməsi mümkün olan spesifik, xüsusi səlahiyyətləri (məsələn, referendumun təyin olunması proseduruna riayət olunmasının yoxlanılması üzrə) fərqləndirmək olar. Lakin bu hüquq haqqında mübahisəyə baxılması və bu mübahisənin xüsusi prosedurlarda həll olunması kimi spesifik ədalət mühakiməsini həyata keçirən orqan qismində onun təbiətini dəyişmir (13).

Fikrimizcə, «Konstitusiya Məhkəməsinin səlahiyyətlərinin və aktlarının öz məzmununa görə bütün digər məhkəmələrin hüquq tətbiqedici aktlarından mühüm şəkildə fərqləndiyi nəzərə alınmaqla, bu anlayışdan istifadə olunması hüquqauyğundur» yazan V.P.Bojyev öz mühakimələrində haqlıdır (14). Bununla əlaqədar xüsusi olaraq qeyd etmək istəyirik ki, mühakimə icraatı və ədalət mühakiməsi yaxın, lakin üst-üstə düşməyən anlayışlardır, belə ki, onlardan birincisi ədalət mühakiməsi həyata keçirilmədən də tamamlana bilər.

Fikrimizcə, Konstitusiya Məhkəməsinin və ədalət mühakiməsi həyata keçirən digər məhkəmələrin fəaliyyətinin məzmunundakı keyfiyyət fərqi ondan ibarətdir ki, sonuncular konstitusiyonluq nöqteyi-nəzərindən çıxış edərək qanunları konkret hallara tətbiq edirlər, Konstitusiya Məhkəməsi isə normativ aktların Konstitusiyaya uyğunluğuna nəzarət edir və ya konkret iş üzrə icraat zamanı tətbiq olunan və ya tətbiq edilməli olan qanunun konstitusiyonluğunu yoxlayır.

Hesab edirik ki, hüquqşünaslar tərəfindən tətbiq olunan «konstitusiya ədalət mühakiməsi» termini öz məzmununa və tərkib elementlərinə görə klassik ənənəvi mənada ədalət mühakiməsindən fərqlənir. N.V.Vitruk özünün konstitusiya ədalət mühakiməsinə həsr olunmuş işində bu barədə dəqiq və aydın danışır. Məsələn o, yazır ki, «Konstitusiya ədalət mühakiməsi hüquq sahəsi kimi konstitusiya məhkəmələri tərəfindən mühakimə icraatının müstəqil növü formasında – konstitusiya mühaki-

mə icraatında həyata keçirilən konstitusiya nəzarətinin təşkili və fəaliyyəti prosesində yaranan keyfiyyətcə eyni növlü ictimai münasibətlər kompleksini nizamlayan hüquq normaları sistemidir.

Konstitusiya ədalət mühakiməsinin əsasında dövlət orqanlarının şəxsində dövlətlə hüququn digər subyektləri arasında yaranan konstitusiya hüquq münasibətlərinin, habelə həm konstitusiya xarakterli, həm də sahəvi real hüquq münasibətlərinin, onların öz aralarında uyğunluğunun təhlili durur. Konstitusiya məhkəməsi istisnasız olaraq hüququn bütün subyektləri üçün məcburi qüvvəyə malik hakimiyyət xarakterli qərarlar qəbul edir. Bu qərarlar qətidir və onlardan şikayət verilə bilməz» (15). Konstitusiya məhkəməsinin fəaliyyəti konkret işlər üzrə ədalət mühakiməsi deyil, məhkəmə konstitusiya fəaliyyətinin təşkili və fəaliyyəti sferasında yaranır. Bu o demək deyil ki, konstitusiya ədalət mühakiməsi anlayışı, ümumiyyətlə, hüquqauyğun deyil. Onlar - məhkəmənin məhz onu və ya digər normativ aktla müqayisədə daha yüksək hüquqi qüvvəyə malik olan qanunu tətbiq etmək vəzifəsinin birinci planda olduğu halda - konstitusiyaya uyğun olmama motivləri üzrə konkret normativ aktların konstitusiyaya uyğunluğunun mübahisələndirildiyi vətəndaşların və təşkilatların hüquqlarının müdafiəsi haqqında işlərə baxılmasına tətbiq olunur. Bu halda söhbət həqiqətən ədalət mühakiməsindən, lakin mühakimə icraatının digər növləri ilə yanaşı həyata keçirilən konstitusiya ədalət mühakiməsindən gedir.

Bütün bunlar ona gətirib çıxarır ki, «konstitusiya ədalət mühakiməsi» və «ədalət mühakiməsi» anlayışları qətiyyən eynimənalı deyil və üst-üstə düşmür. Biz ədalət mühakiməsini ənənəvi klassik formalarla - mülki, iqtisadi və cinayət mühakimə icraatı ilə əlaqələndiririk.

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmə qanunu konkret hallar tətbiq edir və mülki işdə maraqlı şəxslərin subyektiv hüquq və vəzifələrinin olub-olmaması, cinayət işində isə hüquq pozuntusuna yol verənin əməlinin cinayət xarakterli olması və ona görə nəzərdə tutulan məsuliyyət barədə nəticə çıxarır. Məhkəmə tətbiq edilməməli olan və ya lazım olmayan qanunu tətbiq edərsə, yaxud qanunu səhv təfsir edərsə və bunun nəticəsində məhkəmənin gəldiyi nəticələr onun dəqiq mənasına zidd olarsa, qətnamə və ya hökm qanunsuz sayılır və ləğv olunmalıdır.

Mülki mühakimə icraatında qəbul olunan, lakin işi mahiyyət üzrə həll etməyən və tərəflərin maddi-hüquqi vəziyyətini müəyyən etməyən məhkəmə aktları «ədalət mühakiməsinin həyata keçirilməsi» anlayışı ilə əhatə olunmur; bu cür aktlarda, başlıca olaraq, proses ərzində - ərizə qəbul olunandan məhkəmə qərarı icra olunanadək, o cümlədən işin başa çatdırılması zamanı (iş üzrə icraata xitam verilməsi və ərizənin baxılmamış saxlanması) yaranan prosessual-hüquqi məsələlər həll olunur.

«Ədalət mühakiməsi» anlayışı təkcə onlara aid olan işlərə baxılması və həll olunması üzrə məhkəmələrin fəaliyyətini deyil, həm də öz hüquq və vəzifələrini realizə edən və məhkəmə, onun aparatı ilə müxtəlif təşkilati və prosessual münasibətlərə daxil olan digər subyektlərin hərəkətini əhatə edən «mühakimə icraatı» anlayışı ilə də üst-üstə düşmür (16).

Həmçinin qeyd etmək lazımdır ki, hüquqi vəzifələrdən başqa konstitusiya məhkəməsi fərdlərin dövlət çərçivəsində inteqrasiyasından ibarət siyasi vəzifəni də yerinə yetirir, vətəndaşların hakimiyyətdən ara-

lanmasına mane olur, belə ki, hər bir vətəndaş bilir ki, o, hətta qanunverici ilə mübahisə edə bilər və konstitusiya məhkəməsi qarşısında bu formal cəhətdən bərabər tərəflərin mübahisəsi olacaq.

Xüsusi konstitusiya yurisdiksiyasının əsas üstünlüyü prosedurun sadələşdirilməsi hesab olunur. Bu zaman konstitusiya məhkəməsi yalnız konstitusiya-hüquqi məsələlərə baxmaqla kifayətlənir. O, cinayət, mülki və digər hüquq sahələri ilə bağlı bəzən çox mürəkkəb məsələləri yolüstü həll etmək zərurətindən azaddır. Ən əsası isə konstitusiya məhkəməsi hüquq haqqında konkret mübahisələrin halları ilə bağlı deyil və normativ aktların konstitusiyaya uyğunluğu məsələlərinə mücərrəd nəzarət qaydasında baxa bilər. Eyni zamanda konstitusiya məhkəməsinin səlahiyyətləri bütün qalan məhkəmələri konstitusiyanı tətbiq etmək və digər dövlət orqanlarının fəaliyyətinin konstitusiyaya uyğunluğuna nəzarət etmək hüququndan məhrum etmir.

Konstitusiya ədliyyəsinin müstəsna səlahiyyətlərinə, bir qayda olaraq, aşağıdakı məsələlər aiddir:

- ali dövlət orqanları arasında mübahisələrə baxılması;
- qanunların konstitusiyaya uyğunluğu üzərində nəzarət;
- konstitusiya hüquqlarının pozulması ilə əlaqədar vətəndaşların, qrupların və ya assosiasiyaların şikayətlərinə baxılması;
- referendumun konstitusiyaya uyğunluğunun yoxlanılması.

Bundan başqa, konstitusiya məhkəməsinin səlahiyyətinə aşağıdakılar daxil ola bilər:

- nümayəndəli hakimiyyət orqanlarına seçkilərlə bağlı şikayətlərə baxılması;
- «konstitusiyanın müdafiəsi» (dövlət orqanlarının hərəkətlərinin konstitusiyaya uyğun olmaması ilə bağlı şikayətlərin verilməsi; konstitusiyanın pozulmasına görə dövlətin yüksək vəzifəli şəxslərinin vəzifədən kənarlaşdırılması; siyasi partiyaların antikonstitusion xarakterinin müəyyən olunması; qanunvericini və ya ali məhkəmə orqanlarını konstitusiya pozuntularını aradan qaldırmağa məcbur edən qərarlar qəbul etmək və ya konstitusiya hüquq və azadlıqlarının gerçəklənməsini təmin edən aktlar vermək);
- qanunun rəsmi təfsiri;
- konstitusiya uyğunluğu planında beynəlxalq hüquq normalarının tövsifi;
- digər «qeyri-tipik» prosedurlar.

Konstitusiya məhkəmələrinin səlahiyyətlərində daha çox maraq kəsb edən məsələ konstitusiya yurisdiksiyasının təbiətinə daha çox yaxın olan qanunların konstitusiyaya uyğunluğu üzərində nəzarət və konstitusiya hüquqlarının pozulması ilə bağlı fərdi şikayətlərə baxılmasıdır.

İlkin nəzarətin üstün cəhəti ondan ibarətdir ki, o, mübahisəli konstitusiya-hüquqi məsələləri qanunvericiliyin nizamlanmasının ən ilkin mərhələsində, qanun hələ qüvvəyə minənədək aydınlaşdırmağa imkan verir. O, həmçinin sabitliyə kömək edir, qanunun sonralar qəbul olunduğu andan etibarsız hesab olunması zamanı qanun qüvvəli aktların ləğv olunması problemini aradan qaldırır. O, sonrakı nəzarət zamanı mümkün olan həddə qanunvericinin nüfuzuna xələl yetirmir. «Beynəlxalq təcrübədə konstitusiya məhkəmələrinin (konstitusiya şuralarının) hüquqi statusunun müqayisəli təhlili konstitusiya qanunlarının Respublika Prezidenti tərəfindən imzalanmasınadək onları Konstitusiya məhkəmə-

sinin nəzərindən keçirilməsi məqsədəuyğun hesab edilir ki, bu da Konstitusiya məhkəməsinin nəzarət fəaliyyətində onun işini xeyli yüngülləşdirir»(17).

Eyni zamanda ilkin nəzarətin mühüm bir qüsuru var. Müasir qanunvericiliyin, xüsusilə sosial-iqtisadi sferaya aid olan qanunvericiliyin mürəkkəbliyi, onun tətbiqi praktikası və məhkəmələr və icra hakimiyyəti orqanları tərəfindən təfsir olunması haqqında məlumatlar olmayanadək onun konstitusiyaya uyğunluğunun aydınlaşdırılması son dərəcə çətinləşdirir. Eyni zamanda qanun qəbul edilərkən, nəzərə alınan sosial-iqtisadi şərtlər sonradan o dərəcədə dəyişə bilər ki, yeni şəraitdə ayrı-ayrı normaların mənası konstitusiyanın mənasına zidd ola bilər.

Bu nöqteyi-nəzərdən sonrakı nəzarət daha üstündür (baxmayaraq ki, Fransada və Yunanıstanda bu cür nəzarət mümkün deyil).

Federativ dövlətdə sonrakı nəzarət federasiya subyektinin konstitusiya səlahiyyətlərinin federal qanunvericiliklə pozulmasından müdafiə olunması üçün çox səmərəli vasitədir və əksinə federal səlahiyyətlərin müdafiəsi vasitəsidir. Belə ki, bütün məsələlər üzrə səlahiyyətlərin ciddi bölgüsünü aparmaq mümkün deyil və həmişə birgə səlahiyyət sferaları qalır. Və səlahiyyətlərə riayət edilməklə qəbul edilmiş qanunların tətbiqi prosesində onlar nəinki federasiya və onun subyektləri arasında mübahisənin səbəbi ola, həm də sadəcə olaraq onun qeyri-konstitusionluğu aşkar oluna bilər.

Xüsusi məsələ - konstitusiya islahatlarının aparıldığı şəraitdə sonrakı nəzarətin qüvvədə olan qanunvericiliyə tətbiqi ilə bağlıdır, belə ki, o, yeni konstitusiyaya zidd olmur. Burada o nöqteyi-nəzərdən çıxış etmək lazımdır ki, bir tərəfdən konstitusiya məhkəməsinin qanunları müəyyən mənada etibarsız elan etmək hüququ istənilən məhkəmənin qanunu əhəmiyyətsiz elan edə bilməsi barədə bu cür müddəanın əksinə olaraq qüvvədə olan qanunvericilik hakimiyyətinin müdafiəsi forması kimi çıxış edir («mərkəzləşdirilmiş» və «mərkəzləşdirilməmiş» konstitusiya yurisdiksiyası). Lakin digər tərəfdən söhbət başqa, hətta prinsipial olaraq başqa sosial-tarixi vəziyyətdə, hazırda qüvvədə olan konstitusiya ilə bağlı olmayan qanunverici tərəfindən qəbul olunmuş qanunlardan gedir. Buna görə də fikrimizcə, bu cür qanunların etibarsızlığının müəyyən olunmasının konstitusiya məhkəməsinin müstəsna səlahiyyətinə aid olmasını hesab etmək zərurəti yoxdur.

Bir sıra dövlətlərdə (Almaniya, Avstriya, İtaliya), hazırda isə Azərbaycanda hüquq tətbiq edən orqanlar konstitusiya məhkəməsində konkret nəzarət prosedurunu qaldırmaq hüququna malikdirlər. Burada konstitusiya məhkəməsinə müraciət etmək üçün şərt bir qayda olaraq, hüquq tətbiq edən orqanın (adətən bunlar məhkəmələrdir) tətbiq edəcəyi qanunun konstitusiyaya uyğun olmaması barədə nəticəyə gəlməsidir. Bu cür halda məhkəmə iş üzrə icraatı dayandırmalı və Konstitusiya məhkəməsinin müvafiq qərarını gözləməlidir. İşə baxılmasının dayandırılması və Konstitusiya məhkəməsinə müraciət ya hakimin vəzifə səlahiyyətləri əsasında, ya da proses tərəflərindən birinin vəsatəti əsasında mümkündür.

«Mərkəzləşdirilmiş» konstitusiya yurisdiksiyasına uyğun olan bu cür prosedur adi məhkəmənin səlahiyyətinə həm konstitusiyanın təfsir olunmasının, həm də məhkəmənin tətbiq etdiyi qanunların konstitusiyonluğunun yoxlanılmasını ehtiva edir. Lakin eyni zamanda məhkəmə

özü qanunu etibarsız elan edə bilməz. Bu cür səlahiyyət yalnız bir, xüsusi məhkəmə instansiyasına məxsusdur ki, bu da müxtəlif birinci instansiya məhkəmələrinin qərarlarında konstitusiyanın və ya qanunların eyni bir normasının müxtəlif cür təfsir olunmasına yol verməməyə imkan verir və konstitusiya məhkəməsinin qərarları hüququn təfsirinin ümummecburi aktları qüvvəsini kəsb edir.

Sonda konstitusiya hüquqlarının pozulmasına dair fərdi şikayətlərə baxılması problemi barədə dayanacağıq. Vətəndaşın Konstitusiya hüquqları onların məhkəmədə müdafiə oluna biləcəyi səviyyədə realdır. Əlbəttə, müdafiə üçün adi məhkəməyə də müraciət etmək kifayətdir, lakin xüsusi olaraq konstitusiya hüquqlarının müdafiəsi üçün yaradılmış məhkəməyə müraciət etmək imkanı bu cür hüquqların müdafiə olunma səviyyəsini prinsipial şəkildə qaldırır.

Bu dəlillər aydındır. Lakin o da aydındır ki, konstitusiya hüquqlarının bilavasitə qanunlarla və ya qanunların tətbiqi aktları ilə pozulmasını hesab edən vətəndaşların bütün şikayətlərinə mahiyyəti üzrə baxmaq üçün təqribən hüquq tətbiqetmə orqanlarının sayı qədər konstitusiya məhkəmələri yaratmaq lazım gələrdi. Fərdi konstitusiya şikayətlərinə yol verilən bütün ölkələrdə, şikayətlərin əksəriyyətinin bir qayda olaraq baxılmaq üçün qəbul edilməməsinə baxmayaraq, konstitusiya məhkəmələrinin bu qədər sayda işlərin öhdəsindən gəlməsi olduqca çətindir.

Lakin bütün bunları vətəndaşın konstitusiya məhkəməsinə müraciət etmək hüququna qarşı əsaslar kimi qiymətləndirmək olmaz. Fərdi şikayətlə konstitusiya məhkəmələrinə müraciət edilməsinə yol verilən ölkələrin praktikası göstərir ki, bu hüquq bütün digər hüquqlardan daha çox vətəndaşlarda onların hüququn hökmranlığı rejiminin mövcud olduğu cəmiyyətdə yaşamalarına inam yaradır; bu cür inam isə - demokratik konstitusiya dövlətinin ən etibarlı təməlidir. Vətəndaşlar öz hüquqları ilə bağlı hətta qanunverici ilə mübahisə edə biləcəklərinə əmin olsalar, onlar öz hüquqlarının müdafiəsinə bütün qanuni vasitələrlə və hüquqlarının pozulduğu bütün hallarda nail olurlar.

## ƏDƏBİYYAT

1.Гаджиев Х. Толкование норм Конституции и закона конституционными судами. Баку, 2002, с. 79.

2.Конституции государств Европы: В 3-х т. Т.1 / Под ред. Л.А. Окунькова. М., 2001, с. 75.

3.Судебные системы западных государств / Под ред. В.А.Туманова. М., 1991, с. 39.

4.Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2003, s. 444.

5.Конституции государств Европы: В 3-х т. Т.2 / Под ред. Л.А. Окунькова. М., 2001, с. 77.

6.Бланкенагель А. Теория и практика конституционного контроля в ФРГ // Советское государство и право, 1989, № 1, с. 108.

7.Жуйков В.М. Судебная защита прав граждан и юридических лиц. М., 1997, с. 192.

8.Ржевский В.А., Чепурнова Н.М. Судебная власть в Российской Федерации: конституционные основы организации и деятельности. М., 1998, с. 120-131; Гуценко К.Ф., Ковалев М.А. Правоохранительные органы. М., 1998, с. 115.

9.Кряжков В.А., Савицкий В.А. Рецензия на книгу В.А. Ржевского, Н.М. Чепурновой «Судебная власть в Российской Федерации: конституционные основы организации и деятельности» // Государство и право, 1999, № 5, с. 125-126.

10.Правоохранительные органы Российской Федерации: Учебник / Под ред. В.П. Божьева. М., 1999, с. 53-58.

11.Витрук Н.К. Конституционное правосудие. Судебное конституционное право и процесс. М., 1998, с. 38-39.
12.Комментарий к федеральному конституционному закону «О судебной системе РФ» / Под ред. В.И.Радченко, В.П.Кашепова. М., 1997, с. 21.
13.Məlikova M.F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyəti / Azərbaycan XXI əsrin astanasında» İkinci elmi-praktiki konfransının materialları. Bakı, 1998, s. 560.

## О ПРАВОВОМ СТАТУСЕ ОРГАНОВ КОНСТИТУЦИОННОЙ ЮСТИЦИИ

С.И.БЕКТАШИ

### РЕЗЮМЕ

В представленной статье в первую очередь отмечается, что тенденция возрастания роли и престижа судебной власти не в последнюю очередь связана и с созданием специальных конституционных судов по осуществлению контроля за конституционностью и законностью нормативно-правовых актов. Далее утверждается, что наделение судебной власти функцией конституционного контроля свидетельствует о расширении сферы деятельности судебной власти.

В статье также рассматриваются характерные черты двух основных моделей конституционной юстиции. Так, первая модель конституционной юстиции заключается в осуществлении конституционного контроля в рамках общей судебной системы. Что касается второй модели, то он выражается в осуществлении конституционной юстиции специально для этого созданным квазисудебным органом.

## ON LEGAL STATUS OF THE ORGANS OF CONSTITUTIONAL JUSTICE

S.I.BECKTASHI

### SUMMARY

First of all, the introduced article points out that the tendency towards increasing the role and prestige of judicial authority is not the least related to the establishment of special constitutional court controlling constitutionality and lawfulness of legal acts. It states further that providing judicial authority with the function of constitutional control is the evidence of the expansion of its sphere of action.

Characteristic features of two main models of constitutional justice are also considered in the article. Thus, the first model of constitutional justice consists in conducting constitutional control within the framework of the general court system. As for the second model, it appears in the carrying out of the constitutional justice by the specially established quasi-legal body.